| **Kamil Məmmədəli oğlu Məmmədzadə**<br>**1926 - 1998**<br>**Sənətşünaslıq doktoru, professor**<br>Kamil Məmmədzadə respublikanın görkəmli alimlərindən biridir. Onun tədqiqatının əsas istiqaməti Azərbaycan memarlığı və arxeologiyasının tikinti mədəniyyəti tarixidir. O, 80-dən artıq elmi əsərin, o cümlədən beş monoqrafiyanın müəllifidir. Onun «Qədim dövrlərdən XIX əsrə qədər Azərbaycanın tikinti sənəti» adlı monoqrafiyası böyük elmi-praktiki əhəmiyyətə malikdir. Akademik Ə.V.Salamzadə ilə birgə yazdıqları «Arazboyu abidələr», «Şəkinin memarlıq abidələri», «Azərbaycan memarlığının Naxçıvan məktəbi abidələri» adlı monoqrafiyaları Azərbaycan memarlıq elminə böyük töhfədir.<br>Uzun müddət Azərbaycan Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunda çalışmışdır. |  |
|---|---|